# Şəki bölgəsində yaşayan frankofon namizədlər üçün yarışma : « Qədim Şəki turu Aleksandr Dümanin xatirələri ilə » adlı gəzinti marşrutu. Mükafat : Fransaya səyahət.

## Namizədliyə çağırış : son tarix 15 aprel

Fransanın Azərbaycandakı Səfirliyi və Fransız İnstitutunun (İFA) Şəki Regional Turizm İnformasiya Mərkəzi ilə əməkdaşlıq çərçivəsində namizədliyə çağırışı.

**Müsabiqənin qısa xülasəsi :** Məşhur Fransız yazıçısı Aleksandr Düma 19-cu əsrdə Şəkidə olmuşdur. Bu epizodu o, 1858 və 1859-cu illərdə bu bölgəyə etdiyi səyahətdən bəhs edən « Qafqaza səyahət » adlı kitabında işıqlandırır. Şəki Regional Turizm İnformasiya Mərkəzi, yaxın gələcəkdə xarici qonaqlar üçün Şəkidə Aleksandr Dümanın xatirələri əsasında « Qədim Şəki turu Aleksandr Dümanin xatirələri ilə » adlı gəzinti turu təşkil etməyi planlaşdırır. Fransanın Azərbaycandakı Səfirliyi və Fransız İnstitutu bu layihənin həyata keçirilməsini təşviq etmək arzusundadır və bu məqsədlə, Şəkidə yaşayan, turizm və ya muzey bələdçisi kimi ilk təcrübəsi olan gənc frankofonlara həsr olunmuş bir müsabiqə təşkil edir. Müsabiqənin qalibi Fransa səyahət və Şəki Regional Turizm Məlumat Mərkəzinin bu marşrut üzrə frankofon bələdçisi olmaq imkanı qazanacaqdır.

**BIRINCI MƏRHƏLƏ : Şəkidə Aleksandr Dümanın xatirələrinə əsaslanan turizm marşrutu layihəsinin təqdimatından yararlanmaq üçün, fransızca danışan üç namizədin seçilməsi.**

**Təqdimat :** Şəki Regional Turizm İnformasiya Mərkəzi « Qədim Şəki turu Aleksandr Dümanin xatirələri ilə » adlı şəhər gəzinti turu layihəsi planlaşdırır. Şəkidə yaşayan, turizm və ya muzey bələdçisi kimi təcrübəsi olan üç fransızdilli namizəd, Şəki Regional Turizm İnformasiya Mərkəzi tərəfindən bu layihənin təqdimatında iştirak edəcək.

**Seçim mərhələsində iştirak şərtləri :**

- 18 ilə 35 yaş arasında olmaq ;
- Azərbaycan vətəndaşı olmaq ;
- Fransız dilində danışmaq (minimum A 2 səviyyəsi) ;
- Şəki bölgəsində yaşamaq ;
- Bələdçi kimi müəyən təcrübəyə sahib olmaq.

**Sınaqlarda iştirak üsulları :** Bu müsabiqəyə qoşulmaq istəyən namizədlər sənədlərini aşağıdakı şəkildə tam tərtib olunmuş formada göndərməlidirlər :

- CV (fransız və azərbaycan dillərində) ;
- Ev ünvanı və şəxsiyyət vəsiqəsinin surəti ;
- Fransız dili sertifikatının surəti (DELF-DALF, TCF, universitet diplomu və ya digər sənəd) ;
- Motivasiya məktub (fransız və azərbaycan dillərində) ;
- Aleksandr Dümanın « Qafqaza səyahət » əsəri əsasında yazıçının Şəkiyə səyahətinin xülasəsi (fransız dilində, maksimum 2 səhifə) ; *(əsərin, o vaxtlar Nuxa adlanan Şəkiyə səyahət hissəsinin fransız dilində skan edilmiş surətini* Gamar.AFCHANI@diplomatie.gouv.fr *ünvanına yazaraq xahiş etmək olar).*
- **Sənədləri təqdim etmək üçün son tarix : 15 aprel 2021. Sənədlər email vasitəsilə, tək PDF formatında gamar.afchani@diplomatie.gouv.fr elektron ünvanına göndərilməlidir.**

**Münsiflər :** Münsiflər heyəti Fransanın Azərbaycandakı Səfirliyi və Fransız İnstitutu tərəfindən iki nəfər və Şəki Regional Turizm Mərkəzi tərəfindən bir nəfərdən ibarət olacaqdır.

**Seçim :** Münsiflər heyəti, « Qədim Şəki turu Aleksandr Dümanin xatirələri ilə » turistik gəzinti marşrutunun təqdimatından faydalanacaq 3 namizədi, sənəd üzərindən və şifahi müsahibə yolu ilə (onlayn, 30 dəqiqə: fransız dilində 15 dəqiqə və azərbaycan dilində 15 dəqiqə) seçəcəklər.

**Marşrut təqdimatının tarixi və yeri:** Seçilən 3 nəfərə Şəki Regional Turizm Mərkəzi «Qədim Şəki turu Aleksandr Dümanin xatirələri ilə » tur planı haqqında informativ sessiya keçirir. Təqdimat Azərbaycan dilində, may ayında təşkil olunacaqdır.

## İKINCI MƏRHƏLƏ: « Qədim Şəki turu Aleksandr Dümanin xatirələri ilə » şəhər gəzinti marşrutunun ən yaxşı frankofon bələdçi namizədinin seçilməsi.

**İştirak üsulları :** Hər üç namizəd şifahi şəkildə təqdimat etməlidir :

- Şəki TİM-in keçirdiyi məlumatlandırıcı sessiyada öyrəndikləri ekskursiya turunun fransız və azərbaycan dillərində onlayn simulyasiyası;
- Hər namizəd üçün 1 saat vaxt (30 dəqiqə fransız və 30 dəqiqə azərbaycan dilində)

**Münsiflər :** Münsiflər heyəti Fransanın Azərbaycandakı Səfirliyi və Fransız İnstitutu tərəfindən iki nəfər və Şəki Regional Turizm Agentliyi tərəfindən bir nəfərdən ibarət olacaqdır.

**Seçim :** Münsiflər üzvləri qalibi şifahi testin nəticələrinə görə seçəcəklər.

**Mükafatlar:**
Müsabiqənin hər 3 finalisti Şəki TİM-in xüsusi informativ sessiyasında iştirak haqqı qazanır, həmçinin xəritə və broşura paketi əldə edir. Hər iki mərhələni uğurla başa vuran 1 qalibə isə Fransız İnstitutu tərəfindən təxminən 2 həftəlik « Fransaya mədəni və turistik səyahət » hədiyyə edilir. Qalib həmçinin, **pandemiyadan sonra** Şəki Regional Turizm Mərkəzi və Azərbaycan Turist Bələdçilər Assosiasiyası (ATBA) tərəfindən təşkil ediləcək « Qədim Şəki turu Aleksandr Dümanin xatirələri ilə » adlı marşrutun bələdçilik təlimində iştirak haqqı qazanacaq. Beləliklə, qalib Şəki Regional Turizm Mərkəzi tərəfindən təsdiqlənmiş marşrutun sertifikatlı fransızdilli tur bələdçisi olmaq fürsəti əldə edəcəkdir.

**İkinci mərhələnin tarixi və yeri :** Marşrutun Şəki Regional Turizm Mərkəzi tərəfindən hazırlanmış təqdimatından sonra (may və ya iyun ayı).